# Naxçıvan Muxtar Respublikasının Dövlət İmtahan Mərkəzi



# Azərbaycan dilinin Orfoqrafiya Normaları

- "Azərbaycan Respublikasında dövlət dili haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə"Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 2 yanvar tarixli 835 nömrəli Fərmanının 2.1-ci bəndinə əsasən, Azərbaycan Respublikasının Dövlət Dil Komissiyası ilə razılaşdırmaqla, Azərbaycan Respublikasının Nazirlər Kabineti "Azərbaycan dilinin Orfoqrafiya Normaları" təsdiq edilmişdir.

ORFOQRAFİYA LÜĞƏTİ

**Azərbaycan dilinin lüğətində Azərbaycan mənşəli sözlər tələffüz edildiyi kimi yazılır:**

*addım, dəniz, gəlin, günəş, qoşun, oğul, qaranquş*

**Son səsi [x], bəzən [ğ] kimi tələffüz olunan Azərbaycan mənşəli sözlər q hərfi ilə yazılır:**

*ayaq, barmaq, bulaq, dayanacaq, qatıq, qonaq, qorxaq*

Saitlə başlayan şəkilçi qoşulduqda k-y əvəzlənməsi olur: *otağa, bulağın, qonağımız*

**Son səsi [x′] kimi tələffüz olunan çoxhecalı Azərbaycan mənşəli sözlər k hərfi ilə yazılır:**

*bilək, birlik, külək, ürək, üzərlik, üzük*

Saitlə başlayan şəkilçi qoşulduqda k-y əvəzlənməsi olur: *biləyi, birliyimiz, ürəyim, üzüyün*

**Son səsi [k′] kimi tələffüz olunan bir qrup alınma sözlər q hərfi ilə yazılır:**

*filoloq, ittifaq, müstəntiq, natiq, şəfəq, üfüq, vərəq*

Saitlə başlayan şəkilçi qoşulduqda dəyişiklik baş vermir: *filoloqa, şəfəqi, üfüqə*

**Son səsi [k] kimi tələffüz olunan alınma sözlərə saitlə başlanan şəkilçi qoşulduqda dəyişiklik baş vermir:**

*əmlak – əmlaka, iştirak – iştirakımız, şərik – şəriki*

**Son səsi [t], bəzən də [d] kimi tələffüz olunan çoxhecalı Azərbaycan mənşəli sözlər d hərfi ilə yazılır:**

*bulud, palıd, söyüd*

**Son səsi [ç], bəzən də [c] kimi tələffüz olunan sözlər c hərfi ilə yazılır:**

*qılınc, ülgüc, kərpic*

**Tərkibində o hərfi olan alınma sözlər [a] və ya [o] ilə tələffüz edilməsindən asılı olmayaraq, o ilə yazılır:**

*avtomat, kollec, kollektiv, laborant, Moskva, motor, obyekt, Odessa, poema, poeziya, problem, professor, solist, velosiped*

**İkinci hecasındakı saiti [i], bəzən də [ü] kimi tələffüz olunan ərəb mənşəli sözlər tarixi-ənənəvi prinsipə əsasən i ilə yazılır:**

*külli, müdir, müdrik, müflis, müxbir, müxlis, münbit, münsif, mürid, mürşid*

*Mühüm, müşkül* və *üfüq* sözlərindəki ikinci heca ***ü*** hərfi ilə yazılır

**Mənbə dildə [u] saitli alınma sözlər ü hərfi ilə yazılır:**

*bülleten, büro, jüri, karbürator, kompüter, paraşüt, süjet, şlüz*

## Mənbə dildə birhecalı sözlər iki cür yazılır:

**iki saitlə yazılanlar:**

*cisim, eyib, ətir, feil, fəsil, fikir, heyif, isim, izin, qəbir, qədir, qisim, meyil, nəsil, ömür, səbir, sətir, sinif, şeir, şəkil, zehin*

**bir saitlə yazılanlar:**

*cəbr, əmr, həbs, həsr, hökm, hüsn, hüzn, kəsr, qəbz, qəhr, qəsr, nəbz, nəfs, nəsr, sehr, sədr, üzr, üzv, zülm*

## Rus dilində tərkibində ц hərfi olan alınma sözlərin yazılışı:

ümumi isimlərdə:

- s hərfi - *aseton, dosent, konsert, lisey, kulminasiya, aksiya, sement, sirk*
- *Metso, vitse, blits, ratsiya* istisnadır

xüsusi isimlərdə:

- sözün əvvəlində **s** - *Setkin, Siolkovski*
- sözün ortasında və axırında isə **ts** - *Motsart, Muromets, Vorontsov*

## Rus dilində tərkibində щ hərfi olan alınma sözlərin yazılışı:

sözün əvvəlində və sonunda **ş** yazılır

- *Şedrin, Şerba, Şors, borş*

ortasında qoşa **ş** ilə yazılır

- *meşşan, Vereşşagin*

**H samiti ilə başlanan alınma sözlər h ilə yazılır:**

*Haaqa, Hamburq, harmoniya, Havana, Hegel, hippodrom, hospital, humanizm*

**1-2-ci hecasında samiti həm [m], həm [n] kimi tələffüz olunan alınma sözlər n ilə yazılır:**

*anbar, günbəz, İstanbul, qənbər, sünbül, şənbə, tənbəl, zanbaq, zənbil*

**-iy, -skiy ilə bitən xüsusi isimlərin sonundakı y yazılmır:**

*Qordlevski, Qorki, Mayakovski, Yaroslavski*

**Kimyəvi element adları əslinə uyğun olaraq yazılır:**

*kalium, maqnezium, natrium*

**Kimyəvi element adları əslinə uyğun olaraq yazılır:**

*kalium, maqnezium, natrium*

**Əsli w samitli alınma sözlər v hərfi ilə yazılır:**

*veb-sayt, Vilyam, vörd*

**Əsli [q] samitli alınma sözlər incə saitli hecalarda g ilə yazılır:**

*biologiya, dialektologiya, general, geologiya, gigiyena, etimologiya, gitara*

**Mənbə dildə tərkibində qq, ll, mm, pp, tt samitləri olan Avropa mənşəli aşağıdakı alınma sözlər bir samitlə yazılır:**

*aqlütinativ, paralel, teleqram, aparat*

*apellyasiya, attestasiya və akkreditasiya sözləri istisnadır*

**Təkhecalı sözlərin sonunda qoşa samitin hər ikisi yazılır:**

*fənn, haqq, hiss, xətt, küll, rədd, sirr, zənn, zidd*

samitlə başlanan şəkilçi artırıldıqda, qoşa samitlərdən biri düşür:
*fənn – fənlər, haqq – haqsız, xətt – xətdən, sirr – sirlər*

*Hiss* və *küll* sözləri istisnadır. *Hiss* sözünə yalnız **–siz** şəkilçisi artırıldıqda, **s** düşür

**Söz sonunda qoşa s samitli aşağıdakı alınma sözlər bir s ilə yazılır:**

*ekspres, konqres, kros, bras, stres*

*Press (mətbuat)* sözü istisnadır

**Söz ortasında qoşa s samiti olan aşağıdakı alınma sözlər bir s ilə yazılır:**

*aksesuar, kaset, masaj, pasaj, şose*

**Tərkibində a-, anti-, ba-, bi-, na-, pre- ön şəkilçiləri olan sözlər bitişik yazılır:**

*anormal, antivirus, baməzə, bisavad, nalayiq, prepozisiya*

Anti şəkilçisindən sonra xüsusi isim gəldikdə, defis işarəsi qoyulur: *Anti-Azərbaycan*

**Ahəng qanununa tabe olmayan və bir cür yazılan şəkilçilər:**

**i** : samitlə bitən sözlərdə **-i;** *cənubi, daxili, elmi, həyati, Naxçıvani, şimali, Şirvani, tarixi*

**i** : saitlə bitən sözlərdə isə şəkilçinin əvvəlinə **v** samiti artırılır: *ailəvi, dairəvi, Gəncəvi, kütləvi*

**-vari** : *buynuzvari, qalxanvari, üzükvari, yüngülvari*

**-keş** : *qayğıkeş, zəhmətkeş, cəfakeş*

**-daş** : *yoldaş, əməkdaş, yurddaş, soydaş*

**-stan** : samitlə bitən sözlərdə şəkilçinin əvvəlinə **ı, i, u, ü** saitlərindən biri artırılır: *Dağıstan, Türkmənistan*

**-gil** : *bacımgil, xalamgil, Əhmədgil*

**-zadə** : *xanzadə, bəyzadə, Axundzadə*

## İki cür yazılan şəkilçilər:

kar samitlə bitən sözlərdə: **-qan, -kən;** cingiltili samitlə bitən sözlərdə **-ğan, -gən** : *çalışqan, deyingən*

**-ağan, -əyən** şəkilçisi: *qaçağan, güləyən, küsəyən*

## Dörd cür yazılan şəkilçilər:

**-kı, -ki, -ku, -kü** şəkilçisi: *axşamkı, bildirki, səhərki, gündüzkü*

sifət və isim düzəldən **-ı, -i, -u, -ü** şəkilçisi: *darçını, badımcanı, narıncı, çərkəzi, armudu, gümüşü*

saitlə bitən sözlərdə bu şəkilçinin əvvəlinə **y** samiti artırılır: *bənövşəyi, buğdayı, xurmayı, sürməyi*

## Rəqəmlə yazılan miqdar saylarına mənsubiyyət və hal şəkilçiləri əlavə edildikdə, şəkilçidən əvvəl defis qoyulur:

*2-yə, 3-də, 5-i, 6-nın, 17-si, 20-dən*

## Rəqəmlərdən sonra ahəng qanununa görə sıra sayının şəkilçisi ixtisarla (-cı, -ci, -cu, -cü) yazılır:

*2-ci, 3-cü, 6-cı, 10-cu*

## Roma rəqəmlərindən sonra şəkilçi yazılmır:

*beşinci – V, onuncu – X*

| Bitişik yazılır: |
|---|
| bir vurğu ilə deyilən müxtəlifmənalı sözlər: *arabir, balacaboy, beşillik, beşmərtəbəli, bugünkü, dilucu* |
| eyni feil kökünün təkrarı və **a, ə, ha** bitişdiriciləri vasitəsilə yaranan mürəkkəb isimlər: *qaçaqaç, kəsəkəs* |
| eyni sözün təkrarı və ***ba, bə*** bitişdiriciləri vasitəsilə yaranan mürəkkəb zərflər: *addımbaaddım, aybaay* |
| ***aero-, aqro-, audio-, avia-, avto-, ekzo-, endo-, elektro-, foto-, makro-, mikro-, mini-, mono-, multi-, nano-, neo-, oksi- oliqo-, paleo-, para-, post-, proto-, psevdo-, psixo-, stereo-, super-, tele-, termo-, trans- ultra-, ümum-*** morfemləri olan mürəkkəb sözlər: *aeroklub, aqromüxtəliflik, audioəlaqə, aviasalon, avtopark, endoplazma, mikrocərrahiyyə, elektromaqnit, fotoçəkiliş, miniavtobus, transmilli, ultrasəs* |

| Defislə yazılır: |
|---|
| qoşa sözlər: *adda-budda, aşıq-aşıq, az-maz, dedi-qodu, əzik-üzük, hələm-qələm* |
| tərkibində **art-, eks-, əks-, kontr-, qeyri-, ober-, veb-, vitse-** olan sözlər: *art-obyekt, eks-prezident* |
| izafət birləşmələri: *həddi-büluğ, külli-aləm, külli-ixtiyar, nöqteyi-nəzər* |
| mürəkkəb coğrafi sözlər: *cənub-qərb, şərq-qərb, şimal-şərq* |
| mənaca bir-birinə yaxın və ya əks anlayışları bildirən sözlər: *ağıllı-kamallı, az-çox* |
| ölçü vahidlərini bildirən isimlər: *kiloelektron-volt, kilovat-saat* |
| birinci tərəfi **açıq**, **tünd**, **ala** sözlərinin iştirakı ilə yaranan mürəkkəb sifətlər: *açıq-sarı, tünd-göy, ala-seyrək.*<br>**təhər** olan sifətlər istisnadır: bu cür sözlər bitişik yazılır: *göytəhər* |

## Qoşmalar:

təkhecalı qoşmalar (-can, -cən, -dək, -tək) aid olduqları sözə bitişik yazılır: *dağacan, evəcən*

ikihecalı qoşmalar (ilə, kimi, qədər, ötrü, təki, üçün) sözdən ayrı yazılır: *gəmi ilə, adam kimi*.
İlə qoşması samitlə bitən sözlərdə -la, -lə şəklində bitişik yazıla bilər: *qatarla, qələmlə*.
*Etibarilə, məqsədilə, münasibətilə, vasitəsilə* sözləri bitişik yazılır.

## Ədatlar:

ayrı yazılır: *daha gözəl, dedim də, di get, ən yaxşı, gör ha*

-mı, -mi, -mu, -mü; -sana, -sənə, -ca, -cə ədatları bitişik yazılır: *Qəşəngdirmi? Oxudumu?*

## Nidalar:

Eyni nidanın təkrarından əmələ gələn nidalar defislə yazılır: *bəh-bəh, ha-ha-ha*

Müxtəlif sözlərdən əmələ gələn nidalar ayrı yazılır: *ay aman, ay haray*

## Bağlayıcılar:

mürəkkəb olan bağlayıcılar bitişik yazılır: *çünki, habelə, halbuki, həmçinin*

Tərkibi bağlayıcılar və bağlayıcı sözlər ayrı yazılır: *belə ki, buna görə, buna görə də, bunun üçün*

## Birinci hərfi böyük yazılan sözlər:

Ad, soyad, təxəllüs və ləqəb bildirən sözlərin (*bəy*, *oğlu* və *qızı*-başqa) birinci hərfi : *Nizami Gəncəvi*

Xüsusi isimlər cəm şəkilçisi qəbul etdikdə: *Nizamilər, Füzulilər, Hacı Qaralar*

Bədii əsərlərdə heyvanlara və cansız əşyalara verilən adlar: *Alapaça, Badə, Bəng*

Tarixi hadisə, dövrlər, sülalələr, yazılı abidələrin adlarının birinci sözünün ilk hərfi: *Azadlıq meydanı, Çaldıran döyüşü*

Ölkə, muxtar respublika, vilayət, diyarların rəsmi adlarının tərkibindəki bütün sözlərin ilk hərfi: *Azərbaycan Respublikası*

Səmavi kitabların, fəza cisimlərinin adları böyük hərflə yazılır: *Quran, Bibliya, Əhdi-cədid*

*Ali dövlət vəzifələri* - *Azərbaycan Respublikasının Prezidenti, Azərbaycan Respublikasının Baş naziri*

*Dövlət orqanları (qurumları), birlik, cəmiyyət, akademiya, universitet, kollec, teatr, filarmoniya, siyasi partiya, tarixi günlər kimi adların bütün sözlərinin (adına, üzrə, və, yanında, qarşı-başqa) birinci hərfi: Nazirlər Kabineti*

*Dövlət rəmzləri, tərkibində gün* sözü olan və təqvimə düşən əlamətdar günlərin adlarında bütün sözlər: *Azərbaycan Respublikasının Dövlət Himni, Beynəlxalq Qadınlar Günü*

Məşhur tarixi gün və bayram adlarında yalnız birinci sözün ilk hərfi: *İyirmi yanvar, İyirmi səkkiz may*

## Birinci hərfi böyük yazılan sözlər:

| |
|---|
| *Azərbaycan Respublikasının səhiyyə* naziri, *Azərbaycan Respublikasının kənd təsərrüfatı* naziri tipli *mürəkkəb* adlarda *sahə (səhiyyə)* və *vəzifə* (nazir) *bildirən sözlər kiçik hərflə yazılır* |
| *Lisey, gimnaziya, vəqf, məktəb, fakültə, şöbə* sözləri olan adlarda ilk söz böyük, sonrakı sözlər kiçik hərflə: *Avropa liseyi* |
| Okean, *dəniz, çay, göl, şəhər,* rayon, *qəsəbə, kənd,* prospekt, meydan, *küçə,* xiyaban, saray, qala, *türbə,* qoruq, *boğaz, düz,* ada, burun, *körpü, düzənlik, dağ, səhra, dərə* sözləri olan adlarda ilk söz: *Sakit okean* |
| Fəxri adların özək hissəsini təşkil edən ilk söz böyük hərflə, sonrakı sözlər kiçik hərflə yazılır: *Əməkdar müəllim Azərbaycanın Milli Qəhrəmanı, Sovet İttifaqı Qəhrəmanı* mürəkkəb adlarında hər üç söz böyük hərflə yazılır |
| Orden, medal, *bədii əsər,* opera, balet, kinofilm, *qəzet,* jurnal, kinoteatr, mehmanxana, *nəşriyyat,* kafe, restoran və s. adları dırnaqda və *birinci sözü* böyük hərflə yazılır: *"Vətənə xidmətə görə"* ordeni |

## İxtisarlar (akronimlər) və qısaltmalar:

tam ixtisarlar *(akronimlər)* və qısaltmalar aid olduqları sözlərə uyğun olaraq böyük hərflə yazılır: *Azərbaycan Respublikası* - *AR*

tam ixtisarlar ümumi isimlərə aid olduqda kiçik hərflə yazılır: *metr - m, cild - c, və sairə - və s*

yarımçıq ixtisarlar aid olduqları sözlərə uyğun olaraq, *böyük və ya* kiçik hərflərlə, mürəkkəb adların tərkib hissələri isə bitişik yazılır: *akademik – akad., doktor – dok., dosent* - *dos.*

İxtisarlara *(akronimlərə)* əlavə edilən şəkilçilər son səsin tələffüzünə uyğun olaraq yazılır: *AMEA-dan, MDB-nin*

## Sözün sətirdən sətrə keçirilməsi:

Sözlər sətirdən sətrə hecalarla keçirilir: *və-tən*

Sözün bir saitdən ibarət olan hecasını sətrin sonunda saxlamaq və ya yeni sətrə keçirmək olmaz: *a-ilə*
Sözlər sətirdən sətrə bu şəkildə keçirilir: *ai-lə*

Saylar rəqəmlə yazıldıqda, onlara artırılan şəkilçilər sətirdən sətrə keçirilmir: *5-cilər*

İxtisarlara *(akronimlərə)* əlavə edilən şəkilçilər son səsin tələffüzünə uyğun olaraq yazılır: *AMEA-dan, MDB-nin*

Ad və ata adlarının bir hərfdən ibarət qısaltmalarını (*M.F.Axundzadə*) sətrin sonunda saxlamaq olmaz

# DİQQƏTİNİZƏ GÖRƏ SAĞ OLUN!